İnsanların ilkin peyğəmbəlik kəlamından bildikləri sözlərdən biri: Utanmırsansa, istədiyini et" - sözüdür

Abu Məsuddan (Allah ondan razı olsun) rəvayət edilir ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) belə demişdir: "İnsanların ilkin peyğəmbəlik kəlamından bildikləri sözlərdən biri: Utanmırsansa, istədiyini et" - sözüdür.

[Səhih] [Əl-Buxari rəvayət etdi]

Peyğəmbər (sallallahu aleyhi və səlləm) əvvəlki peyğəmbərlərin vəsiyyətlərindən olan, insanların öz aralarında nəsildən-nəsilə nəql etdikləri və hətta bu ümmətin əvvəlinə qədər gə-lib çatan sözlərdən biri də: "Etmək istədiyin şeyə bax, əgər o, utanılan bir şey deyilsə, onu et. Əgər o, utanılan şeydirsə, onu tərk et" - sözü olduğunu xəbər vermişdir. Çünki insana pis şeyləri etməyə mane olan həyadır. Kimin həyası olmazsa, hər bir pis və münkər əməli işləyər.

http://sunnah.global/hadeeth/az/show/4559